Heydər Əliyev - 101

UOT 94(479.24)

İBRAHİM ZEYNALOV
Bakı Dövlət Universitetinin professoru
ibrahimzeynalov@bsu.edu.az

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ MİLLİ TARİXİMİZ

DOI: https://doi.org/10.36719/2708-065X/105/12-20

Elmi məqalədə XX əsrdə xalqımızın yetirdiyi dahi şəxsiyyət, dünya miqyaslı siyasətçi, siyasət və idarəetmə ustadı fenomen lider Heydər Əliyevin öz uzaqgörənliyi, fitri istedadı və nurlu əməlləri ilə Azərbaycanın 50 illik bir tarixinə, ölkəmizdə gedən proseslərə göstərdiyi misilsiz təsirdən, həm də ulu öndər Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi illərdə ölkənin ictimai-iqtisadi və sosial inkişafını təmin etməklə yanaşı, həm də Azərbaycanın zəngin tarixini yaratmasından, tarix elminin inkişafına daim qayğı göstərməsindən bəhs olunur. Məqalədə Heydər Əliyev öz nurlu fəaliyyəti ilə tarix yaratması, onun tarix konsepsiyasının bütövlükdə Azərbaycanın əldə olunan uğurlarına və gələcək inkişafına, müstəqilliyimizin əbədiliyinə hesablanması şərh olunur. Həmçinin, Heydər Əliyevin tariximizin, xüsusilə XIX və XX əsr tariximizin bir sıra problemlərinə öz obyektiv münasibətini bildirməsi və bu əsrlərin tarixinin təhrif olunmadan, obyektiv, olduğu kimi yenidən yazılmasını tarixçilərimiz qarşısında bir vəzifə kimi qoyması və s. məsələlər öyrənilir və təhlil edilir.

Açar sözlər: milli tariximiz, XIX və XX əsrlər, minillik, qaranlıq səhifə, ağ ləkələr, təhrif, obyektiv, dirçəliş, milli özünəqayıdış, milli-maddi irsimiz, 50 ilə yaxın dövr, soykök, ideologiya, münaqişə, milli dil, milli tarix, faciə, şəxsiyyət, inteqrasiya.

Giriş. Minilliklərdən keçib gələn Azərbaycan tarixi zəngin qaynaqlar üzərində formalaşmış və XX ərin ikinci yarısından ulu öndər, dünya miqyaslı siyasətçi, görkəmli dövlət xadimi, dahi şəxsiyyət, xalqımızın fenomen lideri Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti və nurlu əməlləri sayəsində daha şərəfli, daha yüksək zirvəyə qaldırılmışdır.

Tarixdə şəxsiyyətlər çoxdur. Onların bir çoxunu tarix özü yetişdirsə də, öz nurlu, məqsədyönlü, fədakar fəaliyyətləri ilə tarixin özünü yaradanlar da az olmamışdır. Hər tarixi dövr öz şəxsiyyətini yetişdirir.

XX əsrin ortaları və XXI əsrin başlanğıcında Heydər Əliyev Azərbaycan tarixinə görkəmli siyasi və dövlət xadimi, dünya miqyaslı siyasətçi kimi daxil olmuşdur. Bu dahi şəxsiyyət, xalqının, milli dövlətimizin xilaskarı dünyanın Atatürk, Vaşinqton, Nehru, Şarl de Qoll kimi tarixi simaları sırasında öz layiqli yerini tutdu [7, s.5].

Ulu öndər Heydər Əliyev Ulu Tanrının ona bəxş etdiyi ömrün yarım əsirdən çox bir zamanını xalqına, dövlətinə, xalqımızın taleyüklü problemlərinin həllinə, o cümlədən, mədniyyətinin, elminin, tarixinin, dilinin inkişafına həsr etmişdir.

Müstəqillik illərində, Azərbaycanın beynəlxalq münasibətlər sistemində sözünün, səsinin eşidilməsi, ona diqqətin artması heç də yalnız ölkəmizin tutduğu əlverişli strateji mövqe ilə, təbii sərvətləri, malik olduğu neft ehtiyatları ilə bağlı olmayıb, həm də və bəlkə daha çox dərəcədə onun Prezidentinin (ümummilli liderinin) bir şəxsiyyət kimi, dövlət xadimi və siyasi lider kimi böyük nüfuzu, unikal fərdi keyfiyyətləri ilə bağlıdır. Belə keyfiyyətlərdən biri də ümummilli lider Heydər Əliyevin hansı mövzuda danışırsa danışsın hadisələrin arxasında mahiyyəti görə bilmək qabiliyyətidir. O danışdıqca fitri natiqlik məharəti ilə hadisələrin təfsilatından fəlsəfi qatlara keçir, problemə ümumiləşmiş nəzər salır və bu ümumi fonda hadisənin məğzi çox aydın görünür [9, s.4].

Ümummilli lider Azərbaycana rəhbərliyinin həm birinci, həm də ikinci dövründə iqtisadiyyatın, o cümlədən, mədəniyyətin, elmin, təhsilin müxtəlif sahələrində öz vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə əvvəlcə əlverişli, əhəmiyyətli qərarlar qəbul edilməsinə

nail olur, sonra da bütün xalqımızı həmin taleyüklü qərarların icrasına səfərbər edir, doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizə aparır və fədakarcasına çalışırdı.

Ulu öndər Heydər Əliyev, Azərbaycana rəhbərlik etdiyi illərdə hər cür maneələri, çətinlikləri dəf edərək xalqımızın, dövlətimizin, bütövlükdə Azərbaycanımızın hərtərəfli inkişafını təmin edən xüsusi qərarlar qəbul etməsinə nail olurdu. Xalqın qurub-yaratmaq gücü tamamilə və bütünlükdə ölkəmizin ümumi yüksəlişi üçün səfərbər olunurdu. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin tarixinə ən parlaq quruculuq dövrü kimi, tənəzzüldən tərəqqiyə dönüşün başlaması, dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüş mərhələsi kimi [1], müstəqil Azərbaycan dövlətinin formalaşması, dinamik inkişafı və dünya inteqrasiya sisteminə qoşulması, Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi, iqtisadiyyatının dinamik inkişafı və beynəlxalq siyasət konsepsiyasının əsaslarının yaradılması illəri kimi daxil olub.

O, deyirdi: "Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan , inkişaf etdirən, tarixini əks etdirən, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, xalqını yüksək səviyyəyə çatdıran alim onlar hamısı birlikdə öz xalqının, millətinin milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəli getməsinə xidmət göstərir" [10, s.55]. 1920-ci ildə Azərbaycan tarixinin qısa bir dövrünü əhatə edən müstəqil dövlətin strukturlarının fəaliyyətinə son qoyuldu. Buna baxmayaraq, Cümhuriyyətin mövcudluğu Azərbaycan xalqının tarixində silinməz izlər buraxdı və onun şüuruna müstəqil yaşamaq düşüncələri hakim oldu. Heç şübhəsiz, əgər Cümhuriyyət qurulmasaydı və beynəlxalq aləmdə tanınmasaydı, Azərbaycan SSR də yaradılmaz və sovet dövründə respublikanın formal müstəqilliyi də mövcud olmazdı.

Bütövlükdə ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi illərdə xalqımızın, dövlətimizin əldə etdiyi ən mühüm tarixi nailiyyətlər, o cümlədən, xalqın uzaq gələcəyini nəzərdə tutan, müstəqilliyimizin əbədiliyinin təmin olunmasına yönələn güclü kadr potensialının, nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması Azərbaycan elminin müxtəlif sahələrinin inkişaf etdirilməsinə istiqamətləndirilmiş qərarların qəbul edilməsi və bu qərarların yerinə yetirilməsinin əsaslarının yaradılması da dahi şəxsiyyət, görkəmli dövlət xadimi, xarici siyasət lideri Heydər Əliyevin adı ilə bağlıdır.

"Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır" [11] deyən Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə təhsil, elm, səhiyyə, mədəniyyət və mili-mənəvi dəyərlərimizin qorunması və inkişafı sahəsində, o cümlədən dilimizə, tariximizə yeni yanaşma ilə bağlı daha ciddi və əhəmiyyətli addımlar atıldı.

Bu baxımdan da görkəmli dövlət xadimi, uzaqgörən ustad siyasətçi, ümummilli lider Heydər Əliyev xalqımızın tarixi taleyinə, onun siyasi və sosial həyatına milli-maddi irsinin qorunub saxlanılmasına misilsiz xidmətlər göstərən, qayğı göstərən fenomen bir şəxsiyyət kimi daxil olmuşdur. Heydər Əliyev şəxsiyyətinin, müdrikliyinin böyüklüyü ondadır ki, onun düşüncələri də əməli fəaliyyəti də təkcə bu günlə məhdudlaşmır, uzaq gələcəyə ünvanlanmış olur [12, s.179].

Ümummilli lider Heydər Əliyev bütün əzəli, çoxcəhətli keyfiyyətləri ilə müasirləri olan dövlət xadimlərindən fərqlənir. Ulu öndər bütün keyfiyyətləri ilə xalqa məxsus olmaqla, ölkəmizin canlı tarixi, əsl, yüksək səviyyəli vətənpərvər azərbaycanlı, zəngin idarəçilik, ictimai-siyasi fəaliyyət təcrübəsinə malik beynəlxalq miqyasda böyük nüfuza malik, fitri istedadı, iti duyumu, zəkası və fədakar əməyi ilə fərqlənən Azərbaycan xalqının böyük oğludur.

Böyük alman filosofu Fridrix Nitsşe qeyd edirdi ki, "Tarix tarixi şəxsiyyətləri yox, şəxsiyyətlər tarixi yaradır." Böyük alman filosofunun fikrində bir həqiqət var. Belə ki, ulu öndər də tarixi yaradan şəxsiyyətlərdən idi [yenə orada].

Ölkəmizin əlli ilə yaxın bir zamanı ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur və Azərbaycan tarixinin qaranlıq, ləkəli,təhrif olunmuş və saxtalaşdırılmış səhifələri onun müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə yenidən obyektiv araşdırılmağa, öyrənilməyə və yazılmağa başlanmışdır.

Ulu öndərin tarixçilər qarşısında qoyduğu mühüm məsələlərdən biri də Azərbaycan tarixinin ümumdünya tarixi kontekstində tətbiq edilməsi və burada sosial-iqtisadi, ictimai-siyasi və mədəniyyət tarixinin öz əksini tapması məsələsidir. Ümummilli lider Heydər Əliyev tarixçilərə müraciət edərək deyirdi: "Bizim tariximiz- həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin,

yəni XVIII, XIX və XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb... Tarixin hər bir dövrünü olduğu kimi yazmaq lazımdır. Bu, tarixçilərimizin əsas vəzifəsidir. Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, Azərbaycançılıq hissini yüksəldərik" [14, s.369].

Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə milli-mənəvi dəyərlərimizə, maddi-mənəvi irsimizə, dərindən bələd olduğu üçün, milli dilimizə, tariximizə həmişə yüksək qayğı göstərdiyi, müdafiə etdiyi və sevdiyi üçün milli inkişaf konsepsiyasını, o cümlədən, milli tarix konsepsiyasını hazırlamış və bu konsepsiyanın dönmədən həyata keçirilməsinə çalışmış, diqqət yetirmişdir.

Ümummilli liderin Azərbaycana rəhbərliyi dövrü Azərbaycan tarixinin qızıl səhifələrini təşkil edir. Onun rəhbərliyi dövrlərində Azərbaycanın sosial və iqtisadi, siyasi, mədəni inkişafı nəticəsində ixtixar hissi doğuran bir tarix yaradılmışdır.

Heydər Əliyev və Azərbaycan tarixi elmi dedikdə, onun rəhbərlikləri dövründə yaradılmış respublikamızın zəngin tarixi xatırlanır. Onun Azərbaycana rəhbərliyi dövrü böyük bir tarixdir [5, s.4-5].

Azərbaycan xalqının dilinin, ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafına xüsusi diqqət və qayğı göstərən ulu öndər Azərbaycan tarix elmi ilə də daima dərindən maraqlanmış, onun öyrənilməsi, obyektiv tədqiqi və yazılması məsələlərini ön plana çəkmişdir.

Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, "xalq gərək öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın... Tarix həmişə hər şeyi öz yerinə qoyur ... Tariximizin hər səhifəsi bizim üçün əzizdir" [8, s.199]. Ulu öndər qeyd edirdi ki, gərək biz tariximizi olduğu kimi qəbul edək, dərk edək və olduğu kimi qiymətləndirək, onun hər səhifəsinə hörmətlə ehtiramla yanaşaq. Sovetlər dövrünün sərt ideologiyası şəraitində tarixçilərimiz XIX və XX əsrlərdə ölkəmizin, xalqımızın ictimai-siyasi həyatında baş vermiş hadisələr, o cümlədən 1918-1920-ci illərin siyasi hadisələri – AXC-nin yaranması, fəaliyyəti və süqutu da təhrif edilmiş, onun obyektiv təhlili verilməmişdir.

Azərbaycan tarix elminin XX əsrdəki vəziyyətini təhlil edən Ümummilli lider Heydər Əliyevin 1997-ci ilin yanvarında Azərbaycan Milli Elmlər Akademiyasında ziyalılarla görüşündə xüsusi olaraq qeyd etmişdir ki, "Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz. Siz də, bizim o yaşlı tarixçilərimiz də, 1970-ci illərdən fəallıq göstərən tarixçilərimiz də onlardan istifadə edirdilər. Ona görə də biz onların hamısını o ideologiyanın konsepsiyasında bizə verilən kimi əks etdirirdik. Sonra nə oldu? 1990-cı ildən başladılar ki, hamısı pisdir. Yəni o kommunist ideologiyasının vaxtında buraxılan səhvlər indi də təkrar edilir. Həmin səhvlər o vaxtlar bir istiqamətdə, indi başqa istiqamətdə buraxılır. Belə subyektivliyə və tariximizin bundan sonra da təhrif edilməsinə yol verməmək üçün bir neçə dəfə təklif vermişdim ki, XX əsrin tarixi necə var, elə də yazılsın. Amma bu son günlər... fikirləşdim ki, təkcə XX əsrin tarixi yazılsa, bəlkədə bu, az olar... Götürək XIX əsrlə XX əsri yazaq. Bunlar bizim üçün həm yaxındır, həm məlumat, arxiv materialı çoxdur, həm də onlar çox işlənibdir. Amma harada hansı səhv olubsa, gətirib düzəldək və yeni səhvlərə də yol verməyək. Belə hesab edirəm ki, indi akademiyanın, tarixçilərin qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır" [14, s.367-369].

Ulu öndərin çox qiymətli fikirlərindən və təhlillərində tam aydın olur ki, əsrlər boyu xalqımız böyük tarixi yol keçibdir və tariximizin parlaq səhifələri ilə yanaşı qaranlıq səhifələri də var, fəxr ediləsi səhifələri də, faciəli, təhrif olunmuş, saxtalaşdırılmış, obyektivliyi əks edirməyən səhifələri də var. Onu da qeyd etmək lazımdır ki, bizim tariximiz qədimdir, onun beş min ildən artıq yaşı var. Bu illərdə xalqımız, həm də əzab-əziyyətli, sərt, böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milli-mənəvi dəyərlərini, öz dilini qoruyub saxlamış, onları daha da zənginləşdirmişdir.

Azərbaycan tarix elminin XIX və XX əsrlərdəki vəziyyətini təhlil edən ulu öndər Heydər Əliyev bu dövrləri əhatə edən tariximizin obyektiv yazılması zəruriliyindən bəhs edərkən demişdir: "XX əsr çox mürəkkəb bir əsrdir. Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictimai-

siyasi hadisələr məlumdur. Ancaq bu əsrdə yazılmış əsərlərdə ideologiya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur [yenə orada, s.368].

Ulu öndər üçün tarix təkcə sosial-siyasi tarixdən ibarət deyildi. O milli dil, ədəbiyyat, mədəniyyət, incəsənət və s. sahələrin tarixi problemləri ilə də maraqlanır, tarixçiləri, dilçiləri, ədəbiyyatçıları və digər mütəxəssisləri səfərbər edirdi. Ümummilli lider tarix elminin inkişafına, tarixçi kadrlara böyük qayğı göstərirdi. Unutmayaq ki, ümummilli lider 1957-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini əla qiymətlərlə bitirmişdir. Bu baxımdan da Heydər Əliyev tarix elminə daha çox qayğı və diqqət göstərirdi. O, ixtisasca, həm də bir tarixçi, ensklopetik və geniş biliyə, düşüncəyə malik bir şəxs kimi, uzun illər elm sahəsinə rəhbərlik etmiş dövlət və siyasi xadim kimi Azərbaycan tarixinin obyektiv, təhrifə yol vermədən tədqiq edilməsi zəruri olan problemləri tarixçilər qarşısına qoymuşdur. Ulu öndər dəfələrlə göstərirdi ki, biz tariximizin bütün tərəflərini aşkarlamalıyıq, göstərməliyik, faciəni də, nailiyyəti də, qara və ağ ləkələri də qeyd etməliyik. Ümummilli lider qeyd edirdi ki, " Yaxşı da olsa, pis də olsa yaşadığın illəri kiminsə, nəyinsə xatirinə silib atmaq olmaz. Çünki o tarixdir. Tarixi silmək isə heç kimə müyəssər olmayan bir şeydir" [8, s.199].

Ulu öndər dahiyanə, fitri istedadına uyğun olaraq qeyd edirdi ki, insan həmişə öz tarixi, keçmişi ilə, öz tarixi kökləri ilə, müasir nailiyyətləri ilə, qurub-yaratdığı xarüqələri ilə, bəşəriyyətə verdiyi töhfələrlə, yetişdirdiyi qəhrəmanlarla, şəxsiyyətlər ilə fəxr edir. O, qeyd edirdi ki, "Azərbaycan nadir ölkədir, nadir bir ərazidir, bəşər tarixində Azərbaycan bir ərazi kimi, bir ölkə kimi və Azərbaycan xalqı bir xalq kimi böyük tarixi proseslərin iştirakçısı olubdur" [8, s.200].

Dahi şəxsiyyət, həm də xatırladırdı ki, keçmişi unutmaq olmaz, keçdiyimiz, yaşadığımız tarixin hər bir səhifəsinə diqqətlə, hörmətlə yanaşmalıyıq. Çünki keçmiş nəsillər, onların yaratdığı nailiyyətlər, tarix bizi bu müasir dövrümüzə gətirib çıxarıbdır. O qeyd edirdi ki, "əgər belə olmasaydı, indi nə Azərbaycan var idi, nə də Azərbaycanın milləti var idi" [yenə orada].

Azərbaycan müstəqillik qazandığı, sovet, kommunist, yabançı ideoloji sədlər dağıldıqdan sonra, ulu öndərin yenidən Azərbaycan rəhbərliyə gəlməsi ilə tariximizin hərtərəfli araşdırılması, təhlili və tədqiqi üçün münbit şərait yarandı, arxivlərdə ən vacib sənədlərdən istifadəyə qoyulmuş qadağalar, məhdudiyyətlər aradan qaldırıldı. Nəticədə tariximizin obyektiv öyrənilməsinə, tədqiqinə şərait yaradıldı. Ulu öndərin təşəbbüsü, qayğısı ilə tariximizin araşdırılmasına maraq artdı. Bu, bir tərəfdən, təhrif olunmuş, öyrənilməsi yasaq edilmiş, saxtalaşdırılmış, unutdurulmuş tariximizin bir çox taleyüklü problemləri haqqında daha ətraflı, obyektiv və tarixi faktlara, həqiqətlərə əsaslanmaqla araşdırmalara başlamaq üçün şəraitin yaradılmasıdırsa, digər tərəfdən, müstəqillik əldə edən xalqımızın qarşısında duran problem və çətinliklərdən çıxış yolunu arayıb tapmaq üçün zəngin dövlətçilik təcrübəmizi öyrənmək və istifadə etmək zərurətindən irəli gəlir.

Ən azı XIX-XX əsrlərin tarixi hadisələrinə, o cümlədən baş vermiş faciələrə, torpaqlarımızın parçalanmasına,dövlətçiliyimizin məhv edilməsinə, ölkəmizdə qurulan müstəmləkəçilik rejiminə, soyqırımlarına, terrorlara, seperatizmə, ərazimizin işğalına, sərvətlərimizin talan olunmasına və azərbaycanlıların öz ata-baba, doğma torpaqlarından didərgin salınması tarixinə ekskurs edərkən məlum olur ki, əsl həqiqətlər gizlədilmiş, hadisələr təhrif olunmuş, tarixi həqiqətlərin yazılmasına, üzə çıxarılmasına imkan verilməmişdir.

Xalqımızın keçdiyi yol çox çətin, keşməkişli, faciələrlə dolu olan bir yol olmuşdur. Keçdiyimiz bu yolda əldə etdiyimiz nailiyyətlər də, uğurlar da, həmçinin faciəli tariximiz olan Kürəkçay, Gülüstan və Türkmənçay müqavilələrindən başlayaraq XX əsrin müxtəlif zaman kəsiyində törədilən dəhşətlər – 1905-1906-cı illər qırğınları, 1918-1920-ci illər Bakı quberniyasında, Yelizavetpol quberniyasında, İrəvan quberniyasında, Şamaxı və Quba qəzalarında, Naxçıvan ərazisində, Cəbrayıl qəzasında, Zəngəzurda və digər Azərbaycan ərazilərində törədilmiş türk-müsəlman soyqırımı, 30-cu illərin represiyaları, 1948-1953-cü illərdə Qərbi Azərbaycandan azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiyası, 1990-cı il 20 yanvar faciəsi, Xocalı, Daşaltı, Şuşa, Bağanis-Ayrım, Kəlbəcər və s. soyqırım və faciələri – bütün bunlar obyektiv elmi araşdırmalar obyektinə çevrilmişdir.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu öndər Heydər Əliyev qeyd edirdi ki, "Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur. Biz 20 yanvr hadisəsinə indiyə qədər bir faciə kimi qiymət veririk. Həmin gün tariximizə qara gün kimi daxil olmuşdur. Şübhəsiz ki, bunda həqiqət var. Ancaq faciə hansı-

sa səbəbdən baş vermir, ola bilər təbii fəlakət olsun. Amma cəmiyyətdə baş verən hadisənin şübhəsiz ki, səbəbi olur. Ona görə də bu hadisələrə geniş mənada yanaşmaq lazımdır. Getdikcə bu hadisələrin daha geniş mənasını dərk edirik" [8, s.202].

1990-cı il 20 yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış Vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

Hələ XX əsrin 70-ci illərində Azərbaycanda başlanan milli dirçəliş, cəmiyyətin keyfiyyətcə yeni mərhələyə daxil olması ilə yanaşı, həm də milli tariximizə maraq oyatmış, bu sahə də dirçəliş və intibah dövrü başlamışdır [2].

Ulu öndər 1997-ci ilin yanvarında AMEA-nın ziyalıları qarşısında çıxış edərkən bildirdi ki, " ... 70-80-ci illərdə dəfələrlə müraciət etmişdim ki, bizim qədim, orta əsrlər, son dövrlər tariximiz istənilən səviyyədə yazılmayıb... Bizim xalqımızın böyük dövlətçilik tarixi olubdur. Ən qədim dövrlərdən olmuşdur. Orta əsrlərdə Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr vermişdir. Şirvanşahlar dövləti, Atabəylət dövləti, Ağqoyunlular dövləti, Səfəvilər dövləti – bunlar Azərbaycan xalqının dövlətçiliyinin tarixidir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır və nənhayət, XX əsrin əvvəllərində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Ondan sonrakı dövr – 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı böyük bir inkişaf keçmişdir [8, s.204].

Ulu öndər XX əsrin 40-60-cı illərində təhlükəsizlik orqanlarında fəaliyyət göstərməklə yanaşı, o eyni zamanda Azərbaycan tarixində, xalqımızın həyatında baş verən proseslərlə dərindən məşğul olurdu.

O, həmçinin baş verən hadisələrin səbəblərini aşkara çıxarmaq üzərində düşünür, öz mövqeyindən istifadə edərək gizli saxlanılan arxiv materiallarını nəzərdən keçirirdi.

1920-19231-ci və xüsusilə 1937-1938-ci illərdə Azərbaycanda həyata keçirilmiş siyasi repressiyalar haqqında arxiv materiallarını diqqətlə nəzərdən keçirərək həmin illərdə Azərbaycan xalqına, onun ziyalılarına ağır zərbələr vurulduğunu aydınlaşdırmışdır. Ulu öndər Heydər Əliyev 1997-ci il iyulun 4-də Azərbaycan Respublikası Milli Təhlükəsizlik əməkdaşlarının peşə bayramı günə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində qeyd edir: " Mən 37-38-ci illərin və ondan sonrakı dövrlərin materialları ilə tanış olarkən daim öz-özümə sual vermişəm: bu antisovet qruplar, Sovet hakimiyyətini devirmək istəyən qruplar kimlədir. Yenə həmin materiallara baxanda gördüm: kim idi o vaxtkı NKVD-nin başında duran? Qriqoryan, Markaryan, Toporidze və başqaları. 1953-cü ilə kimi bu orqanlarda qalmış, Azərbaycana xəyanət etmiş adamlardan idi, onların əksəriyyəti azərbaycanlı deyildi" [4].

Ulu öndər 1953-cü ildə Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyat şöbəsinə əvvəlcə bölmə rəisi, sonra (həmin ildə) həmin şöbəyə rəis təyin olunur, bu da nadir hadisə idi ki, azərbaycanlı şöbə rəisi vəzifəsinə irəli çəkilmişdi. Onu da qeyd edək ki, həmin dövrdə sərt, mürəkkəb strukturlardan biri olan Dövlət Təhlükəsizliyi orqanlarında işləmək çox da asan deyildi. Sərt və amansız müharibə şəraiti (1939-1945-ci illər), müharibədən sonra tuğyan edən Stalin repressiyasının yeni dalğası gənc çekistin həyatının ən çətin səhifələri idi. Azərbaycan Təhlükəsizlik orqanlarında isti yuva salmış qeyri millətlərin nümayəndələri, xüsusilə, mərkli ermənilərlə belə şəraitdə işləməyin necə çətin olduğu təsəvvür edilməzdir [13, s.5].

Lakin qətiyyətli, əzmli, dözümlü, fitri istedadlı və ən başlıcası cəsarətli və prinsipal olması nəticəsində o, bu maneləri uğurla dəf edir, imkanı daxilində xalqının azadlıq sevər və dəyərli övladlarını qorumağa çalışırdı.

1960-ci ildə Təhlükəsizlik orqanlarında ixtisaslar aparılırdı və Heydər Əliyev yeni yaradılan şöbəyə rəis təyin edilir. Ulu öndər 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-nın sədr müavini, 1967-ci ildə isə DTK-nın sədri vəzifəsinə irəli çəkilmişdi. Onun sədrliyi illərində bu orqanlarda təmizlənmə aparılmaqla yanaşı, həm də azərbaycanlı kadrlar irəli çəkildi və azərbaycanlılar rəhbər vəzifələrdə üstünlük təşkil etməyə başladılar [5, s.13].

Ulu öndər qeyd edirdi ki, tariximizdə görkəmli şəxsiyyətlərin, siyasi və dövlət xadimlərinin, mədəniyyət və incəsənət, elm xadimlərinin tarixi roluna, fəaliyyətinə, xidmətlərinə obyektiv qiymət

verilməlidir. Dahi şəxsiyyət, uzaqgörən dövlət xadimi Heydər Əliyev tədqiqatçılardan bunu tələb edirdi. O, tarixi şəxsiyyətlərdən, onların tarixdəki fəaliyyətlərdən bəhs edərkən qeyd edirdi ki, " ... Məmməd Əmin Rəsulzadə və onunla bərabər Azərbaycan Respublikasının böyük şəxsiyyətləri XX əsrin əvvəllərində və xüsusilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası qurarkən böyük şücaət göstərmişlər... Belə çıxır ki, bir vaxtlar deyirdilər, tariximizdə Lenindən, Stalindən savayı heç kəs yoxdur. Bəs Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Behbud bəy Şahtaxtinski və başqaları?... [12, s.186-187].

Ulu öndərin tariximizə, tarixçilərimizə bu tələblərlə yanaşmasından aydın olur ki, tarixi inkişafın bütün dövrlərində fəaliyyət göstərən şəxsiyyətlərə, görkəmli dövlət xadimlərinə yanaşma, münasibət obyektiv olmalıdır, onların tarixdəki roluna, fəaliyyətinə obyektiv qiymət verilməlidir, subyektivizmə yol vermək olmaz. Daha sonra bu qiymətləndirmə və yanaşma zamanı tarixi şərait, dövr faktları da nəzərə alınmalıdır.

Adları, fəaliyyətləri uzun müddət diqqətdən kənarda qalmış – Nəriman Nərimanovun, Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəyovun və başqalarının fəaliyyətinə qiymət verilməsi bir əsrə yaxın "zindanda məhbus olan" [yenə orada, s.187] Cənub mövzusu, Təbriz mövzusu azadlığa çıxması, AMEA-da cənubi Azərbaycan ədəbiyyatı şərqşünaslıq institutunda Cənubi Azərbaycan şöbələrinin yaradılması Azərbaycan Yazıçılar İttifaqında Cənubi Azərbaycan üzrə katibliyin yaradılması Cənubi Azərbaycan tarixinin öyrənilməsinə diqqətin artırılması tələbi və s. Ulu öndər Heydər Əliyevin adı və qayğısı ilə bağlıdır.

XX əsrin 30-cu il represiyalarına, Azərbaycanın ikinci dünya müharibəsində iştirakına, bu illərdə Bakı neftinin qələbədəki roluna, 1990-cı il 20 yanvar Bakıda törədilən qırğınına, 1988-1993-cü illərdə cərəyan edən prosesslərə ulu öndərin Azərbaycana ikinci dəfə rəhbərliyi dövründə obyektiv, siyasi qiymət verilmişdir.

Məhz, hələ ulu öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə 1969-1982-ci illərdə görkəmli sənət, incəsənət, təsərrüfat adamlarının, öncüllərinin əməyinə yüksək qiymət verilmiş, 1941-1945-ci il müharibəsinin veteranlarına diqqət və qayğı artırılmış, onların xatirəsi əbədiləşdirilmişdir. Ulu öndərin böyük səyi ilə Taqanroq şəhərinin yaxınlığında 416-cı Azərbaycan divizyasının əzəmətli memorialının yaradılması ilə onun qəhrəmanlığı əbədiləşdirilmişdir. Həmçinin, ümummilli liderin səyi ilə Kerçdə, Krımda həlak olmuş minlərlə azərbaycanlının şərəfinə Simferopolun Sapunqora yaxınlığında 77-ci Simferopol atıcı divizyasına xatirə kompleksi ucaldılmışdır. Bütün bunlar ulu öndərin Azərbaycan tarixinə yazdığı misilsiz əhəmiyyətə malik səhifələrdir.

Ulu öndər XX əsrin 90-cı illərinin əvvəllərində azərbaycanda bir qrup ziyalılar, şəxslər ikinci dünya müharibəsində Azərbaycanın roluna, azərbaycanlıların iştirakına, 340 mindən çox adamın həlak olmasına, doğma vətəninə qayıtmamasına obyektiv qiymət vermədilər, hadisələrin izahını başqa səmtə yönəltdilər. Ulu öndər o adamlara qarşı sərt mövqe tutaraq bildirdi ki, Azərbaycanın və azərbaycanlıların bu qədər tarixini silmək, pozmaq mümkün deyil, onlar Azərbaycan övladlarıdır.

Ümummilli lider Heydər Əliyev "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə bu məsələ ilə bağlı demişdir: "Biz fəxr edirik ki, dünyanın bu taleyüklü probleminin həll olunmasında, faşizm üzərində qələbədə Azərbaycan xalqının da mühüm payı olmuşdur" [6, s.29].

Ulu öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə Azərbaycanın yüksək sürətlə inkişaf edən sosial-iqtisadi və mədəni inkişaf tarixi, Azərbaycan dilinin ilk dəfə dövlət dili statusu alması tarixinin yazılması da onun adı ilə bağlıdır.

Müasir tariximizin bir sıra xüsusi əhəmiyyət kəsb edən problemləri olan yeni mülkiyyət formalarının yaranması, aqrar islahatlar, bazar iqtisadiyyatına keçid problemlərinin həlli, müstqəilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsinin əsaslarının yaradılması, müasir tariximizin 50 ildən artıq bir mərhələsi, o cümlədən, müstəqil Azərbaycan dövlətinin formalaşması, iqtisadiyyatın dinamik inkişafının və beynəlxalq siyasi konsepsiyasının yaradılması, Azərbaycanın dünya inteqrasiya sisteminə qovuşması və s. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Həmçinin ulu öndərin Azərbaycanın müstəqilliyinin gələcəyinə, onun əbədiliyinin təmin olunmasına hesablanmış misilsiz tarixi dəyəri olan bir sıra mühüm əhəmiyyət daşıyan fərman və sərəncamlar imzalamışdır.

Azərbaycanın müasir tarixinin ən ağrılı problemləri olan Dağlıq Qarabağ münaqişəsinə münasibətin dəyişməsi, düzgün qiymət verilməsi, bir milyondan çox qaçqın problemlərinin həllində düzgün mövqe tutulması və s. da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, "Kitabi Dədə-Qorqud dastanının 1300 illiyi haqqında" (2000-ci il 9 aprel), "Azərbaycanlıların soyqırımı haqqında" (1998-ci il 26 mart), "Konstitusiya məhkəməsinin yaradılması" (1998-ci il 14 iyul), "Azərbaycanda senzuranın ləğvi" (1998-ci il 6 avqust), "Azərbaycanda ölüm cəzasının ləğv edilməsi" (1998-ci il fevral), "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından deportasiyası haqqında" (1997-ci il 18 dekabr), "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin keçirilməsi haqqında" (1988-ci il), "Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında" (2001-ci il) və s. fərman və sərəncamları qeyd edə bilərik ki, bütün bunlar müstəqillik dövründə Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixinə yazdığı səhifələrdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev yeni minilliklərin qovuşuğunda xalqımıza "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik" adlı müraciət etdi və bununlada bu dahi şəxsiyyət həm də qüdrətli tarixçi olduğunu göstərdi. O həm də tariximizin, dilimizin və maddi mənəvi irsimizin hamisi, qayğıkeşi, öz nurlu, fədakar əməlləri ilə xalqımızı, onun mədəniyyətini dünyada tanıdan görkəmli şəxsiyyət, dövlət xadimi və böyük azərbaycanlı idi.

Ulu öndər harda, hansı vəzifədə işləməsindən asılı olmayaraq, Azərbaycan xalqının onun millimənəvi dəyərlərinin qorunması keşiyində durmuş, ölkə ziyalılarının, alimlərinin əməyini yüksək qiymətləndiridi.

1969-cu il 14 iyulda Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə gəlməsi ilə Azərbaycanda millidirçəliş, özünəqayıdış mərhələsinin başlanğıcı qoyuldu.Ölkəmizin ictimai-siyasi,o cümlədən iqtisadi həyatında intibah dövrü başladı [3].

Sovet rejimindən müstəqilliyə keçid dövrü və müstəqilliyin ilk onilliyi mərhələsinin ən ciddi problemləri ölkədə siyasi sabitliyin yaradılması, sosial-iqtisadi böhranın dayandırılması və bu sahədə inkişafın başlanması, müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsi, uğurlu islahatların keçirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, ordu quruculuğundakı uğurlar və s. məhz ulu öndər Heydər Əliyevin düşünülmüş, uzaqgörən siyasəti, gərgin və səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur.

Heç şübhəsiz ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri milli tariximizin intibah dövrü hesab etmək olar. Onun rəhbərliyi dövründə azərbaycançılıq ideologiyasının milli dövlətçilik ideologiyası səviyyəsinə çatdırılması da ümummililideri Heydər Əliyevin tarixi xidmətidir. Ulu öndər milli tariximixlə daim maraqlanmaqla, həm də onun keşiyində durmuşdur. Tarixi tədqiqatların obyektiv aparılmasına, tariximizdə olan boşluqların doldurulmasını tarixçilər qarşısında bir tələb kimi qoymuşdur. O, tarixçi ziyalılarla görüşündə Azərbaycan tarixinin hər bir dövrünün olduğu kimi, təhrifə yol vermədən tədqiq edilməsi önəmli bir vəzifə kimi qarşıya qoymuşdur.

Nəticə. Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi illərdə Azərbaycan mədəniyyətinin, elminin, o cümlədən, xalqımız dilinin, ədəbiyyatının, tarixinin inkişafı, tədqiqi, araşdırılması Azərbaycanla, onun ayrı-ayrı dövrləri ilə bağlı xarici ölkələrdə, Rusiya arxivlərində olan sənədlərin Azərbaycana gətirilməsində çox böyük işlər gördü. Bununla da, milli tariximizdə yol verilmiş təhriflərin, saxtalaşdırmaların aradan qaldırılmasına, Azərbaycanın XVIII, XIX və XX əsrlər tarixinin yenidən yazılmasına, milli-tarixi yaddaşımızın təzələnməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərdi.

Ulu öndərin Azərbaycana rəhbərliyi dövrü – on il, tarixi nöqteyi nəzərdən az bir zaman olsa da, ancaq bu on ildə Azərbaycanın müstəqilliyi qorunub, möhkəmləndirilib, onun əbədiliyinin əsasları yaradılıb, dünya birliyinə inteqrasiya olunub, müstəqil dövlət kimi regionun ən güclü dövlətinə çevrilib və bütün bunlar müasir tariximizin Heydər Əliyev tərəfindən yazılmış qızıl səhifələridir.

Qeyd edək ki, son 20 ildən çox bir müddətdir ki, ulu öndərin yazdığı, qurduğu bu tarix onun layiqli davamçısı, ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidenti işlər İdarəsi ictimai-siyasi sənədlər arxivi. Fond 1, siyahı 56, iş 9, v.1-161

2. ARPİİİSSA. F.1, siy.56, iş 9, v. 2-18
3. ARPİİSSSA.F.1, ,siy.56,iş 9,v.2-31
4. "Azərbaycan" qəzeti, 6 iyul 1997
5. Bayramov Q. Heydər Əliyev və Azərbaycan tarix elmi. Bakı, "Təhsil", 2004, 264 s.
6. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı: "XXI- Yeni nəşrlər evi", 2001, 56 s.
7. Heydər Əliyev. İki cilddə, 2-ci cild, Bakı: Turxan NPB, 2013, 704 s.
8. Heydər Əliyev: Dövlət xalq üçündür (kəlamlar, sitatlar, aforizmlər). Bakı "Adiloğlu" nəşriyyatı, 2008, 400 s.
9. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997, 136 s.
10. Heydər Əliyev və Bakı Dövlət Universiteti. Bakı, 1997, s.55.
11. "Xalq qəzeti", 12 dekabr 2020-ci il.
12. İsmayıl Hacıyev. Heydər Əliyev siyasəti: tarix və müasirlik. Bakı: "Elm", 2023, 336 s.
13. Qocayev Ə.Ə. Tarixi şəxsiyyətlər. Bakı, 2008, s.5
14. Müstəqilliyimiz əbədidir. VIII kitab. Bakı, Azərnəşr, 1998, 488 s.

ИБРАГИМ ЗЕЙНАЛОВ
Профессор Бакинского государственного университета

НАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГАЙДАР АЛИЕВ И НАША НАЦИОНАЛЬНАЯ ИСТОРИЯ

В научной статье говорится о беспримерном влиянии Гейдара Алиева, гения нашего народа XX века, политика мирового уровня, мастера политики и управления, с его дальновидностью, врожденным талантом и яркими делами, на 50-летнюю историю страны, Азербайджан и процессы, происходящие в нашей стране. В научной статье также говорится о создании богатой истории Азербайджана и постоянной заботе о развитии исторической науки, а также об обеспечении социально-экономического и социального развития страны в годы правления Великого лидера Гейдара Алиева. В статье Гейдар Алиев своей блестящей деятельностью создал историю, его концепция истории рассчитана на достижения и будущее развитие Азербайджана в целом, вечность нашей независимости. Также Гейдар Алиев выразил свое объективное отношение к ряду проблем нашей истории, особенно истории XIX и XX веков, и поставил перед нашими историками задачу переписать историю этих веков объективно, как она есть, без искажений и т. п. вопросы изучаются и анализируются.

Ключевые слова: наша национальная история, XIX и XX века, тысячелетие, темная страница, белые пятна, искажение, цель, возрождение, национальное самовозвращение, наше национально-материальное наследие, почти 50 лет, родословная, идеология, конфликт, национальный язык, национальный история, трагедия, идентичность, интеграция.

IBRAHIM ZEYNALOV
Professor of Baku State University

NATIONAL LEADER HAYDAR ALIYEV AND OUR NATIONAL HISTORY

The scientific article talks about the unparalleled influence of Heydar Aliyev, the genius of our nation in the 20th century, world-class politician, master of politics and management, with his foresight, innate talent and bright deeds, on the 50-year history of Azerbaijan and the processes taking place in our country. The scientific article also talks about the creation of the rich history of Azerbaijan and the constant care for the development of the science of history, in addition to ensuring the socio-economic and social development of the country during the years when the Great

Leader Heydar Aliyev led the republic. In the article, Heydar Aliyev created history with his brilliant activity, his concept of history is calculated for the achievements and future development of Azerbaijan as a whole, and the perpetuity of our independence. Also, Heydar Aliyev expressed his objective attitude to a number of problems of our history, especially the history of the 19th and 20th centuries, and set a task for our historians to rewrite the history of these centuries objectively, as it is, without distortion, etc. issues are studied and analyzed.

Keywords: our national history, 19th and 20th centuries, millennium, dark page, white spots, distortion, objective, revival, national self-return, our national-material heritage, period of nearly 50 years, ancestry, ideology, conflict, national language, national history, tragedy, identity, integration.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. Qabil Əliyev.